“__”.________._____-ci il tarixli , _____________ nömrəli Müqavilə üzrə GPON texnologiyası ilə telekommunikasiya xidmətlərinin göstərilməsinə dair

**ƏLAVƏ № 1**

**1. Ümumi müddəalar:**

Bu Əlavə Telekommunikasiya operatorunun elan etdiyi kampaniya şərtləri çərçivəsində GPON texnologiyası əsasında telekommunikasiya xidmətlərinə qoşulan abunəçilərlə Telekommunikasiya operatoru arasında yaranan xüsusi münasibətləri tənzimləyir və yalnız Müqavilə ilə birlikdə qüvvədədir.

**2. XİDMƏTİN ŞƏRTLƏRİ**

2.1 Abunəçi tərəfindən kommersiya məqsədilə mövcud qanunvericiliyə uyğun olmadan rabitə xidmətlərinin göstərilməsi, lisenziya almadan qanunsuz olaraq şəhərlərarası və beynəlxalq telefon trafikinin daşınmasının təşkili, o cümlədən mobil operatorların şəbəkəsindən istifadə olunmaqla “simbox” nömrələr vasitəsilə respublikanın ümumistifadəli telekommunikasiya şəbəkəsinə beynəlxalq trafik terminasiya edilməməlidir.

2.2 Abunəçi giriş üçün öz parametlərinin təhlükəsizliyinə və onun giriş kanalından icazəsiz istifadə nəticəsində dəymiş zərərə görə tam məsuliyyət daşıyır.

2.3 Təqdim edilmiş avadanlıq (ONT) Abunəçinin mülkiyyətinə verilir və avadanlığın sazlığına görə Abunəçi məsuliyyət daşıyır. Avadanlığa Abunəçinin qəsdən və ya ehtiyatsızlığından edilmiş hərəkəti (və ya hərəkətsizliyi) və ya Telekommunikasiya operatorundan asılı olmayan digər səbəblərə görə zərər yetirildiyi təqdirdə, yeni avadanlığın əldə olunması üçün tam məbləğ ödənilməlidir.

2.4 Xidmət aktiv olduğu nömrədə bütün növdən olan (vəfat etmiş şəxsin adından, fiziki və hüquqi şəxslər arasında) əməliyyatlar icra olunmur. Bunun üçün müraciət edən Abunəçinin nömrəsində xidmət ləğv olunur və Abunəçiyə “yeni qoşulma” təklif edilir.

2.5 Texniki çətinlik provayder tərəfindən qaynaqlandığı təqdirdə, abunəçiyə xidmət göstərilmədiyi dövr günlərlə əvəz olunur.

2.6 Telekommunikasiya operatorunun şəbəkəsinə yeni qoşulan, ən azı telefoniya və internet xidmətlərindən istifadə edən Abunəçi bu xidmətlərdən azı 12 ay ardıcıl istifadə və ödəniş öhdəliyini qəbul etdikdə qoşulma haqqı və avadanlığın dəyərini ödəməkdən azad edilir, yalnız seçdiyi tarifə uyğun olaraq abunə haqqını ödəyir.

2.7 Telekommunikasiya operatoru ilə müqavilə bağlamaqla xidmətlərə artıq qoşulmuş abunəçi GPON texnologiyası ilə xidmətlərə qoşulmaq istədikdə, ən azı telefoniya və internet xidmətlərindən istifadə etməklə, xidmətlərdən azı 12 ay ardıcıl istifadə və ödəniş öhdəliyini qəbul etdikdə avadanlığın dəyərini ödəməkdən azad edilir, yalnız seçdiyi tarifə uyğun olaraq abunə haqqını ödəyir.

2.8 Telekommunikasiya operatorunun şəbəkəsinə yeni qoşulan, telefoniya və internet xidmətlərindən istifadə edən Abunəçi qoşulma haqqı (30 manat) və avadanlığın dəyərinin 50 (əlli) manat hissəsini ödəyir və seçdiyi tarifə uyğun olaraq abunə haqqını ödəyir.

2.9 Xidmətlərə GPON texnologiyası ilə qoşulan yeni abunəçi yalnız telefoniya xidmətini seçdikdə, qoşulma haqqından əlavə, ONT router-in dəyəri olan 110 manat məbləği ödəyir.

2.10 Xidmətlərdən istifadə edən mövcud abunəçi GPON texnologiyasına keçdikdə yalnız telefon xidmətlərindən istifadəni seçdikdə, ONT router-in dəyərini (110 manat) ödəyir.

2.11 Yeni abunəçi kimi qoşulmuş abunəçi xidmətlərdən ardıcıl 12 ay istifadə öhdəliyini pozduqda və müqaviləyə onun təqsirindən xitam verildikdə, qoşulma haqqı (30 manat) və ONT router-in dəyərini (110 manat) telekommunikasiya operatoruna ödəyir.

2.12 GPON texnologiyasına keçirilmiş mövcud abunəçi 12 ay istifadə öhdəliyini pozduqda və müqaviləyə onun təqsirindən xitam verildikdə ONT router-in dəyərini (110 manat) telekommunikasiya operatoruna ödəyir.

2.13 GPON texnologiyasına qoşulan abunəçi sonradan internet xidmətlərindən istifadə və ödənişdən imtina etdikdə, avadanlığın dəyərinin güzəşt edilən hissəsini (60 manat) telekommunikasiya operatoruna geri ödəyir.

2.14 Abunəçi 2 (iki) avadanlıq əldə etmək istədiyi təqdirdə Telekommunikasiya operatoru tərəfindən müəyyən edilmiş tarifə uyğun ödənişi həyata keçirməlidir.

2.15 Telekommunikasiya operatoru təqdim edilmiş avadanlığa istehsalçının təqdim etdiyinə uyğun müddətdə zəmanət verir.

2.16 Zəmanət müddətində avadanlıqda nasazlıq aşkar edildikdə, Abunəçi müdaxilə etmədən Telekommunikasiya operatoru ilə əlaqə saxlamalıdır. Texniki dəstək nümayəndəsi yerində çətinliyi müəyyən edə bilmədiyi təqdirdə təhvil-təslim aktı imzalanaraq avadanlıq yoxlanışa aparılır, müştəriyə isə müvəqqəti olaraq əvəzedici avadanlıq təqdim edilir. Nasaz avadanlığın təmiri mümkün olmadıqda Abunəçi yeni avadanlıqla təmin edilir. Həmin müddət ərzində əvəzedici avadanlığın təhlükəsizliyinə görə Abunəçi məsuliyyət daşıyır.

2.17 Abunəçinin istəyi ilə istənilən növ paketə qoşulan abunəçidə sürətdəyişmə olunduqda, istifadə etdiyi paket üzrə şərtlər ləğv olunur.

2.18 Abunəçidə aktiv olan paket yalnız onun (və ya səlahiyyətli nümayəndəsinin) yazılı müraciətinə əsasən digər paketə dəyişdirilə bilər.

**3. ÖDƏNİŞ ŞƏRTLƏRİ**

3.1 Aylıq xidmət haqqının hesablanması Xidmətin hazır olduğunu təsdiq edən və Müqavilənin ayrılmaz hissəsi sayılan təhvil-təslim aktı (bundan sonra “**Təhvil-təslim aktı**” adlanacaq) Tərəflər arasında imzalandıqdan sonra başlayır.

3.2 Xidmət Abunəçi tərəfindən aylıq ödəniş həyata keçirildikdən sonra 30 (otuz) gün müddətində aktiv olur.

3.3 Paketə qoşulmadan öncə abunəçi tərəfindən ödənilən “avans” (həm telefon, həm internet) məbləği hesabda qalır (dondurulur). Abunəçinin yazılı müraciətinə əsasən həmin avans məbləği paketin ödənişi üçün istifadə edilə bilər.

3.4 Paketə qoşulma tarixdən asılı olmayaraq nömrədə şəhərlərarası, beynəlxalq və mobil nömrələrə zənglərə görə borc olduqda telefon xidməti birtərəfli məhdudlaşdırılır və nəticədə paketə aid bütün xidmətlər dayandırılır, lakin paketin dövrü dayandırılmır.

3.5 Abunəçinin aylıq ödənişinin məbləği seçdiyi tarifə və ya paketə uyğun təyin edilir və ödəniş Müqavilədə göstərilən qaydada və müddətlərdə həyata keçirilməlidir.

**4. TƏQDİM OLUNAN XİDMƏT VƏ AYLIQ ÖDƏNİŞ.**

| Telekommunikasiya xidmətlərin növləri | Qoşulmanın şərtləri | Abunəçinin statusu | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | Yeni qoşulan abunəçi ☐ | | | Mövcud abunəçi ☐ | | |
| | | Qoşulma dövrü haqqı (30 manat) | Avadanlığın dəyəri | Aylıq abunə (Aylıq ödəniş) | Qoşulma haqqı (ödəyib) | Avadanlığın dəyəri (110 manat) | Aylıq abunə (Aylıq ödəniş) |
| | | Ödəyir | Ödəyir | Seçdiyi tarifə uyğun | Ödəyir | Ödəyir | Seçdiyi tarifə uyğun |
| Telefon + ineternet + istəyinə görə digər xidmətlər | 12 aylıq istifadə və ödəniş şərti ☐ | 0 | 0 | | 0 | 0 | |
| Telefon + ineternet + istəyinə görə digər xidmətlər | Standart ☐ | 30 manat | 50 manat* | | 0 | 50 manat* | |
| Yalnız telefon xidməti | ☐ | 30 manat | 110 manat | | 0 | 110 manat | |

- **Abunəçi xidmətlərdən istifadə və ödənişi _____________ müddətdən tez dayandırdıqda, avadanlığın dəyərinin güzəşt edilən qalıq hissəsini (60 manat) telekommunikasiya operatoruna geri ödəyir.**

**Telekommunikasiya Operatoru** **Abunəçi**

_________________________ _________________________